*“Metafizika” Journal*
***2022, vol 5, issue 4, serial 20, pp.77-87***

**UOT:** 7203.01
**KBT:** 74.268.7
**MJ №** 142

# Multikulturalizm müasir cəmiyyətin ictimai-siyasi inkişafının əsas fəlsəfi konsepsiyası kimi

**Nərminə Qasımova***

**Abstrakt.** “Multikulturalizm müasir cəmiyyətin ictimai-siyasi inkişafının əsas fəlsəfi konsepsiyası kimi” sərlövhəli məqalə qloballaşma kontekstində müasir cəmiyyətlərdə baş verməkdə olan mədəni-siyasi problemlərin sosial-fəlsəfi aspektdən təhlilinə həsr olunmuşdur. Məsələyə zamanın və dövrün aktual tələbatı aspektindən yanaşma, digər mədəni identikliyə hörmət qloballaşma dövründə polietnik cəmiyyətlərin etnik-siyasi münasibətlər sistemində tarazlığın pozulmasına səbəb ola biləcək radikalizm, terrorizm, ekstremizm, dini fundamentalizm və irqçilik aktlarının aktuallaşmaması etnik-siyasi subyektlərə münasibətdə təhlükəsiz gələcəyə hesablanmış kompleks tədbirlərin görülməsinin vacibliyi məqalədə öz əksini tapmışdır.

Fəlsəfi aspektdə multikulturalizm termini geniş anlam kəsb edərək müxtəlif dəyərləri özündə birləşdirən sosial subyektlərin mənsub olduqları mədəniyyətlərin ümumiləşmiş ifadəsidir. Məlumdur ki, mədəniyyət və mənəviyyat tarixi fəlsəfi baxış sistemidir və zamanın hökmündən asılı olaraq, hər bir tarixi inkişaf mərhələsində ictimai quruluşun formasından asılı olaraq mədəniyyət və onunla birlikdə mənəviyyat da dəyişir və yeniləşir.

Multikulturalizm bir ölkə daxilində müxtəlif milli mədəniyyətlərin nümayəndələrnin bərabər hüquqlar, özünütəsdiq şəraitində birgəyaşayışı olmaqla tolerantlığın bir formasıdır. Multikulturalizm paradiqmasının fəlsəfi-nəzəri əsasını məhz qlobal cəmiyyətdə paralel mədəniyyətlərin qarşılıqlı anlaşması, birgə fəaliyyəti və habelə onların bərabərhüquqlu dialoqu təşkil edir.

Məqalədə multikulturalizm konsepsiyası fəlsəfi baxımından təhlil edilərək, əsasən kommunitarizm və liberalizm ideyalarının sintezi kimi izah edilmişdir. Xüsusi olaraq qeyd edilmişdir ki, multikulturalizm humanist bir

* Azərbaycan Universitetinin dissertantı;
Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin “Humanitar fənlər” kafedrasının baş müəllimi; Bakı, Azərbaycan
E-mail: narmin_aa@mail.ru
https://orcid.org/0000-0002-9790-0018

**Məqaləyə istinad:** Qasımova, N. [2022]. Multikulturalizm müasir cəmiyyətin ictimai-siyasi inkişafının əsas fəlsəfi konsepsiyası kimi. *“Metafizika” jurnalı, 5*(4), səh.77-87.

***Məqalənin tarixçəsi:***
*Məqalə redaksiyaya daxil olmuşdur: 06.07.2022*
*Təkrar işlənməyə göndərilmişdir: 28.08.2022*
*Çapa qəbul edilmişdir: 14.10.2022*

məfkurə olaraq kommunitarizmin təbliğ etdiyi bərabərliyi və liberalların söylədikləri kimi şəxsiyyətə və digər mədəniyyətlərə, dinlərə hörməti özündə əks etdirir.

Məqalədə qloballaşma fonunda multikulturalizm paradiqmasının müasir cəmiyyətlərin əsas fəlsəfi-siyasi konsepsiyasına çevrilməsi və dövlət siyasəti kontekstində bir çox inkişaf etmiş ölkələrin, o cümlədən Azərbaycan Respublikasının siyasi doktrinasını təşkil etməsi diqqətə çatdırılmışdır.

**Açar sözlər:** multikulturalizm, qloballaşma, cəmiyyət, milli münasibətlər, etnik müxtəliflik, sıvılızasiyaların dialoqu, tolerantlıq, inteqrasiya

## 1.Giriş

Müasir dünyadakı qloballaşma prosesi mədəniyyətlər arasındakı mövcud fərqlərə əsaslanan sivilizasiyaların toqquşması və inteqrasiyası problemlərini müasir fəlsəfənin aktual məsələsinə çevirmişdir. Hazırda müxtəlif mədəniyyətlərin qorunması, gələcək nəsillərə ötürülməsi, dinlər və mədəniyyətlərarası dialoqun, həmçinin interkulturalizmin yaranması mühüm əhəmiyyət kəsb edir. Cəmiyyətin sosial-mədəni sferasında baş verən bu proseslər müasir fəlsəfənin aktual tədqiqat mövzusudur.

Müasir vətəndaş cəmiyyətində multikulturalizm və tolerantlıq məsələləri identikliklə yanaşı inkişaf edərək bir çox inkişaf etmiş ölkələrin və həmçinin bu istiqamətdə dünyada baş verən sosial-mədəni və demokratik proseslərdən kənarda qalmayan Azərbaycan Respublikasının apardığı məqsədyönlü fəaliyyət dövlət siyasəti formasında uğurla həyata keçirilir. Davamlı olaraq cəmiyyətdə multikulturalizmin və tolerantlığın işlək platformaya çevrilməsi istiqamətində aparılan uğurlu dövlət siyasəti bu məsələnin aktuallığını bir daha təsdiq edir.

Məqalədə polietnik ölkələrdə milli azlıqların öz mədəniyyətlərinə sahib çıxmaları və onu inkişaf etdirmələri, qloballaşan dünyanın vacib bir elementinə çevrilmiş multikulturalizmin və milli kimlik məsələlərininin sosial-fəlsəfi və siyasi təhlili, dövlətlərin ərazi bütövlüyü və milli mənafeləri nəzərə alınmaqla etnik qruplara beynəlxalq hüquq normaları çərçivəsində bütün imtiyazların verilməsinin müxtəlif mümkün və yeni təcrübələrinin aşkararlanmasının konseptual sosial-fəlsəfi aspektləri təhlil edilib.

## 2.Multikulturalizm və identiklik münasibətləri müasir fəlsəfənin aktual problematikası kimi

Multikulturalizm və identiklık münasibətləri müasir fəlsəfənin mühüm məsələsi kimi bir çox filosofların və siyasətçilərin tədqiqat və təhlil predmetini təşkil edir. Multikulturalizm fəlsəfi nəzəriyyəsinin mühüm yaranış

səbəblərindən biri məhz fəlsəfə ilə mədəniyyətin kəsişməsi hadisəsidir. Həm Qərb, həm də Şərq fəlsəfəsində, o cümlədən, Azərbaycan ictimai-fəlsəfi fikrində multikulturalizm və tolerantlığın elmi-nəzəri aspektdən araşdırılması, mədəniyyətlər və sivilizasiyalararası əlaqələrin yaradılmasına və bu münasibətlərin yeni formada inkişaf etdirilməsinə, interkulturalizmin genişlənməsinə və dünyada sülhün bərqərar olmasına şərait yaradır.

Multikulturalizm və identiklik məsələlərinin müxtəlif aspektlərini tədqiq edən xarici (K.O.Apel, R.Bernstayn,, R.Kastel, E.Moren, Ç.Teylor,Y.A.Habermas, V. Malaxov, S.S.Bİnhəbib, M.Haydeqqer, M.S.Kaqana, S.S Hantinqton,) və yerli müəlliflərdən (K.Abdulla, İ.Məmmədzadə, E.Nəcəfov, N.Niftiyev, R.Aslanova, R.Mirzəzadə və başqalarını) xüsusi vurğulamaq vacibdir. Multikulturalizmin pozitiv keyfiyyətləri və demokratiyanın təməl prinsipləri nəzərə alınaraq hazırda Azərbaycan Respublikasında multikulturalizm dövlət siyasətinin prioriteti elan edilib.

Multikulturalizmin Amerikalı tədqiqatçı S.Binhəbibin fikrincə, multikulturalizm siyasi nəzəriyyə halında praktik siyasətin istiqamətlərindən biridir və müxtəlif mədəniyyətlərin mütləqləşməsinə əsaslanaq mədəniyyətlərdaxili transformasiyaya tabe oimayan dəqiq sərhədlər çərçivəsində mövcud olur. İdentiklik isə şəxsiyyətin milli və hər hansı bir etnik birliyə mənsubluğudur [4, s.103].

Multultikulturalizm və milli kimliyin bərabər inkişaf etdirilməsi ümumbəşəri dəyərlər kontekstində milli-mənəvi dəyərlərimizin inkişafına xidmət edir. Hazırda multikulturalizmin İsveç, Kanada, Hollandiya, İndoneziya kimi aparıcı modelləri mövcuddur. Müasir dünyada bu istiqamətdə gedən proseslərdən geridə qalmayan Azərbaycan Respublikasında multikulturalizm dövlət siyasətidir. Azərbaycanda multikulturalizm, tolerantlıq və identiklik məsələləri, onların ölkəmizin daxili və xarici siyasətində təzahürü, dövlət-din münasibətləri yüksək səviyyədə öz həllini tapmışdır. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin bu sahədə məqsədyönlü fəaliyyəti, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin, eləcə də, Heydər Əliyev Fondunun milli mədəni irsimizin qorunmasında və dünyada tanıdılmasında gördüyü təqdirəlayiq işlər danılmazdır.

Qlobal cəmiyyətin əsas fəlsəfi konsepsiyalarından birinə çevrilmiş multikulturalizm təcrübəsinin əsas mahiyyətini fərqli mədəniyyətlərin qarşılıqlı anlaşması, birgə fəaliyyəti və habelə onların bərabərhüquqlu dialoqu təşkil edir. Məsələyə aktuallıq prizmasından yanaşma fərqli mədəni identikliyə hörmət və dözümlülük tələb edir. Polietnik cəmiyyətlərin etnik-

siyasi münasibətlər sistemində tarazlığın pozulmasına səbəb ola biləcək hallar və radikalizmin, terrorizmin, ekstremizmin, o cümlədən irqçiliyin vüsət almaması etnik-siyasi subyektlərə münasibətdə multikultual təhlükəsiz tədbirlərinin görülməsini tələb edir.

Müasir demokratik cəmiyyətlərdə məsələyə fəlsəfi aspektdən yanaşsaq, multikulturalizm insanlığa xidmət edən bəşəri ideologiya olmaqla tolerantlığın təcəssümüdür. Təcrübi olaraq isə multikulturalizm siyasi xarakter alır və hər hansı polietnik ölkənin daxili siyasətinin tərkib hissəsinə çevrilir.

Fəlsəfi aspektdə multikulturalizm müxtəlif dəyərləri özündə birləşdirən sosial subyektlərin mənsub olduqları mədəniyyətlərin inteqrasiyasını təmin edir. Mədəniyyət və mənəviyyat tarixi fəlsəfi baxış sistemidir. Hər bir tarixi inkişaf mərhələsində ictimai quruluşun formasından asılı olaraq mədəniyyət və onunla birlikdə mənəviyyat da təkamül edir və yenilənir. Müxtəlif mədəniyyətlərə aid insanlar cəmiyyəti təşkil edərək kollektiv toplumu yaradırlar. Kollektiv hüquqlar da prinsipcə ayrı-ayrı fərdlərin hüquqlarının toplusudur. Bu səbəbdən kollektiv hüquq və azadlıqlar kiçik mədəni qrupların haqlarını tanımalıdır. Multikulturalizm bir ölkə daxilində müxtəlif milli mədəniyyətlərin nümayəndələrinin bərabər hüquqlar, özünütəsdiq şəraitində birgəyaşayışı olmaqla tolerantlığın bir formasıdır [8].

Bildiyimiz kimi multikulturalizmə liberalizm və kommuntarizm yanaşması mövcuddur. Multikulturalizmə liberal yanaşmanın görkəmli nümayəndəsi və siyasi nəzəriyyəçi Vil Kimlika “Multikultural vətəndaşlıq” anlayışını təklif edir. Çandran Kukatas multikulturalizmin klassik və müasir liberal yanaşmalara əsaslanan versiyalarını müvafiq olaraq “zəif multikulturalizm” və “güclü multikulturalizm” kimi xarakterizə etmişdir. O, özü isə “zəif multikulturalizm”tərəfdarı kimi çıxış edir və Kimlikanının nəzəriyyəsinin “güclü multikulturalizm” hesab edir. Bu iki yanaşma arasındakı fərq ondan ibarətdir ki, zəif multikulturalizmdə dövlətin rolu və müdaxiləsi azdır. Ç.Kukatasın bu konsepsiyası “Dözülməzə dözmək” (Toleranting the intolerable) adlı əsərində ifadə olunmuşdur [9, s.39].

Multikulturalizmə kommuntarian yanaşmanın görkəmli nümayəndəsi və “tanınma siyasəti”nin (politics of recognition) müəllifi Çarlz Teylor “tanınma siyasəti” ilə müxtəlif mədəniyyətlərin siyasi müstəvidə tanınması və ədalətli bir şəkildə qəbul olunmasını vurğulayır. Onun fikrincə, multikulturalizm siyasəti ”hər kəsə mənsub spesiflik olanı tanımaq yoluyla” universal mənada hər kəsin bir kimliyi olduğu həqiqətinə hörmət etmək deməkdir [7, s.46].

Multikulturalizm mədəniyyətlərin və sivilizasiyaların stimullaşdırılmasının əsas göstəricisi olmaqla, tolerantlığın təzahürüdür və yüksək inkişaf səviyyəsinə malik ölkələr üçün xarakterikdir. Fərqli mədəniyyətlərin mahiyyətini, xarakterik əlamətlərini, tarixini öyrənmədən digər mədəniyyətlərə tolerant münasibət göstərmək olmaz və onların daşıyıcılarına hörmət bəsləmədən mədəniyyətlərin və sıvılızasiyaların dialoqunu qurmaq mümkün deyil. Hazırda qlobal cəmiyyətlərdə müxtəlif ekzistensiyalara ümumbəşəri və humanist dəyərlər kontekstindən yanaşma multikulturalizmi tarixi zərurətə çevirmişdir.

**3.Multikulturalizm paralel mədəniyyətlərin dialoquna və onların bərabərhüquqlu fəaliyyətinə təminat verən siyasətdir**

Mədəni plüralizm və mədəni müxtəliflik multikulturalizmin fəlsəfi aspektlərini müəyən edir. Milli mənsubiyyəti əsas götürmək, özünəqayıdışa əsaslanaraq fərqli mədəniyyətlərin inteqrasiyasına nail olmaq multikultural cəmiyyətin əsas istiqamətidir.

Kanadalı tədqiqatçı Pol Dyumoçel “Müqayisəli multikulturalizm” adlı məqaləsində multikulturalizmin siyasi əhəmiyyətini önə çıxararaq onu dövlət siyasətinin prioritet istiqaməti kimi dəyərləndirir.[5, s.6]

Multikulturalizmin mədəni siyasət kmi təzahür etdiyi və gözlənilən yüksək mütərəqqi nəticələr verdiyi cəmiyyətlərdə etnik-siyasi münasibətlər baxımından belə bir qanunauyğun mənzərə yaranır. Multikultural cəmiyyətdə mövcud olan və titul xalqın konkret obrazını tərənnüm edən “hakim mədəniyyət” öz müstəsnalığını israrlı şəkildə nümayiş etdirmir və ərazidə tarixən mövcud olan digər mədəniyyətlərə özü üçün istədiyi mədəni nümunəni seçmək azadlığı verilir. Beləliklə də, müasir cəmiyyətlərdə dövlət yaradan, yaxud titul millət öz tarixi vəzifə və xidmətlərini digər xalqların və etnosların tarixi xidmətlərindən əsla üstün tutmur, milli tarix isə onu yaradan bütün xalqların ümumi nailiyyəti kimi qiymətləndirir [6, s.14].

Qloballaşma şəraitində inkişaf edən müasir cəmiyyət müxtəlif mədəniyyətlərin vahid müstəvidə birgəyaşayışını təmin edərək təzahür etməkdədir. Mədəniyyətlərarası dialoq müasir dünyanın hərtərəfli tərəqqisinə və siyasi problemlərin müsbət yöndə həllində alternativsiz təcrübədir. Multikulturalizmin Kanada, İsveç, İndoneziya, Malayziya, Azərbaycan modelləri dünyada aparıcı təcrübələrdir.

Müasir dünyanın inkişaf etmiş ölkələrində etnik qrupların və milli azlıqların polietnik təkamülünə fəlsəfi baxış və onun multikultural, həmçinin tolerant ənənələri, milli, irqi, etnik, dini müxtəlifliyinin bütün formalarının qloballaşma prosesi fonunda beynəlxalq hüquq normaları çərçivəsində subyektiv təfsiri hazırda çox aktual və dünya praktikasında işlək platforma

kimi həyata keçməsi əhəmiyyətlidir Xalqların və milli azlıqların mədəni hüquqlarının pozulmasının cəmiyyətdə gələcəkdə baş verə biləcək münaqişələrə yol aça bilməsi fonunda təhlükəli nəticələri və onun müasir siyasi reallıqlar kontekstində həyata keçirilməsinin elmi-fəlsəfi nəzəriyyəsinin hazırlanması və onun ictimai-siyasi fikirdə təşəkkülü formaları açıqlanmışdır. Beynəlxalq siyasi və mədəni təşkilatların qarşıyaya qoyduqları məqsəd və vəzifələrinə uyğun olaraq müəyyən ölkə ərazisində dominant xalqlar yerli xalqlara və etnik azlıqların nümayəndələrinə dövlət səviyyəsində öz milli və sosial kimliklərinə qovuşmaq və inkişaf etdirmək üçün mədəni hüquqlarından tam olaraq istifadə edə bilərlər.

Elmi-fəlsəfi cəhətdən əsaslandırılmışdır ki, etnik-milli müxtəliflik, millətlərarası münasibətlər polietnik ölkələrin çoxvektorlu dövlət siyasətlərində prioritet istiqamətlərindəndir. Millətlərarası münasibətlərin tənzimlənməsi cəmiyyətdə siyasi sabitliyin mühüm və vacib şərti olmaqla, dövlətin gələcək tərəqqisinin qarantıdır. Multultikulturalizm və milli kimliyin bərabər inkişaf etdirilməsi ümumbəşəri dəyərlər kontekstində milli-mənəvi dəyərlərin inkişafına xidmət edir.

Multikulturalizm və tolerantlıq fəlsəfi nəzəriyyəsi həm də müxtəlif cəmiyyətlərin mədəni yaxınlaşmasına xidmət edir. Müxtəlif mədəniyyətlərin daşıyıcılarının eyni bir müstəvi daxilində həmrəylik nümayiş etdirilmələri, konkret mədəni plüralizm çərçivəsində birgəyaşam qazanması həmin cəmiyyətin yüksək ümumbəşəri insani humanist prinsiplərə sahib olması sayəsində mümkün ola bilər. Multikulturalizm və tolerantlıq öz növbəsində milliyyətçiliyə, etnosentizmə, mədəni imperializmə zidd fəlsəfi təlimdir. Multikulturalizm və milli kimlik məsələlərinin fəlsəfi-mədəni aspektləri müasir cəmiyyətin yeni inkişaf impulslarının aktivləşdirilməsinin, habelə, müasir tələblərə uyğun milli-mədəni, siyasi modellərin müəyyənləşməsini özündə əks etdirir. Bu da öz növbəsində qloballaşan dünyada mültikulturalizm və toleratntlıq kontekstlərində multikulturalizm paradiqmasının vacibliyini önə çəkir.

Multikulturalizm olduqca mürəkkəb və dinamik anlayışdır və bu gün dünyada fərqli modellər şəklində araşdırılması olduqca vacibdir. Bu modellərin bir ölkəyə uyğunlaşması mümkündür, ancaq onlar digər şəraitdə heç biri tətbiq edilə bilməz, çünki istənilən model əsrlərlə formalaşmış müəyyən dəyər-məna bazasına uyğun gəlir və ona aid olur. Bu və ya digər modelin tətbiqi üçün belə əsasların axtarılması çox çətin vəzifədir. Belə ki, yanaşı yaşamanın dünya kosepsiyasının ümumi strategiyasının konkret etnomədəni və milli-mədəni inkişaf konsepsiyası ilə uzlaşması prisiplərindən ibarətdir.

**4.Multikulturalizm demokratiyanın və tolerantlığın təcəssümüdür**

Multikulturalizm humanist və demokratik fəlsəfi nəzəriyyə olaraq həm də tolerantlığın təcəssümüdür. Bu konsepsiyanın fəlsəfi mahiyyətini mədəni müxtəlifliyin harmoniyası təşkil edir. Siyasi, hüquqi və mənəvi mahiyyət daşıyımaqla, dövlətçilik kontekstində tolerantlıq fəaliyyətində ədalətlilik prinsiplərinin müdafiə edilməsidir. Multikulturalizmi dövlət siyasəti kimi qəbul edən ölkələrdə cəmiyyətin hər bir üzvünə bərabər hüquqlar çərçivəsində yanaşılmalı və sosial-iqtisadi təminatlar verilməli, onların cəmiyyətə intrqrasiyası təmin olunmalıdır.

Multikulturalizm məsələsinin fəlsəfi aspekti dunyada sülhün, əmin-amanlıgın, mədəni, siyasi, iqtisadi inkişafın təmin olunmasında cəmiyyətin ictimai şüurunun humanizm prinsipləri çərçivəsində formalaşmasına xidmət edir. Bu gün etnik-mədəni münasibətlərin tənzimlənməsində multikulturalizm ən kreativ və modern platformadır.

Multikulturalizm siyasət modeli kimi cəmiyyətdəki etnik, irqi, dini və mədəni müxtəlifliklərin qorunması və ictimai inkişafın mühüm mənbələrindən biridir. Bununla bağlı 2 noyabr 2001-ci ildə UNESKO-nun “Mədəni müxtəliflik haqqında ümumdünya Bəyənnaməsi”nin “Mədəni müxtəliflik, bəşəriyyətin ümumi irsi” adlı 1-ci maddəsində deyilir:

> *“Mübadilənin, innovasiyanın və yaradıcılığın mənbəyi olan mədəni müxtəliflik təbiət üçün zəruridir.Buna görə də mədəni müxtəliflik bəşəriyyətin ümumi irsidir və o, indiki və gələcək nəsillərin rifahı naminə tanımalı və təsdiq olunmalıdır”* [3, s.19].

Multikulturalizmin pozitiv keyfiyyətlərini və demokratiyanın təməl prinsiplərini nəzərə alaraq hazırda Azərbaycan Respublikasında multikulturalizm dövlət siyasətinin prioriteti elan edilmişdir. Multultikulturalizm və milli kimliyin bərabər inkişaf etdirilməsi ümumbəşəri dəyərlər kontekstində milli-mənəvi dəyərlərimizin, mədəniyyətimizin inkişafına və dünyada tanıdılmadına xidmət edir.

> *“Multikulturalizm siyasəti millətlərə və məzhəblərə məxsus insanların mədəni müxtəlifliklərinin qorunması, inkişafı və harmonizasiyasına, azsaylı xalqların, dövlətlərin milli mədəniyyətinə inteqrasiyasına yönəldilmiş siyasətdir”* [1, s.242].

Artıq müxtəlif dövlətlər öz mövcudluqlarını təsdiq edən və qoruyan milli təhlükəsizlik doktrinalarının (iqtisadi təhlükəsizlik, enerji təhlükəsizliyi, informasiya təhlükəsizliyi, ekoloji təhlükəsizlik, texnogen təhlükəsizliyi.qida təhlükəsizliyi və s.) sırasına yeni bir komponenti də daxil ediblər. Bu “multikultural təhlükəsizlik” adlandırıla bilər və geniş mənəvi spektrı nəzərdə tutur. Qətiyyətlə demək olar ki Azərbaycan da, bu gün öz multikultural

təhlükəsizliyini bir sistemə daxil edibönüşdürüb bunun ciddi məsuliyyətli və önəmli dönəmini yaşayır [2].

**5.Nəticə**

"Multikulturalizm müasir cəmiyyətin ictimai-siyasi inkişafının əsas fəlsəfi konsepsiyası kimi" adlı məqalə müasir fəlsəfənin aktual probleminə həsr edilib. Müasir dünyada qlobal münaqişələrin həllində multikulturalizmin və mədəni dialoqun əhəmiyyəti həddən ziyadə çoxdur.

Məqalədə milli-mədəni müxtəliflik şəraitində milli azlıqların öz mədəniyyətlərinə sahib çıxmaları və inkişaf etdirmələri, multikulturalizmin sosial-fəlsəfi və siyasi təhlili, dövlətlərin ərazi bütövlüyü və milli mənafeləri nəzərə alınmaqla etnik qruplara beynəlxalq hüquq normaları çərçivəsində bütün imtiyazların verilməsinin mümkünlüyü ifadə edilib.

Bu fəlsəfi problematika ilə məşğul olan yerli və xarici ölkə müəlliflərinin tədqiqatları nəzərdən keçirilib. Burada həmçinin multikulturalizmin dövlət siyasətinin prioritet istiqaməti olmaqla dünya miqyasında sülhün bərqərar olmasında, etnik-milli münasibətlərin nizamlanmasında, mədəniyyətlərin və sivilizasiyaların yaxınlaşmasında rolu əsaslandırılıb. Məqalədə qarşıya qoyulmuş məsələyə həm qlobal, həm də milli kontekstində yanaşılıb. Müstəqillik və suverenlik qazanmaqla Azərbaycan Respublikası dünya birliyinə inteqrasiya etmək, multikulturalizm siyasəti isə ölkəmizin bütün dövlətlərlə bərabər əsaslarla qarşılıqlı əlaqələr qurmaq imkanı bəxş edir.

Məqalədə multikulturalizmin sosial-fəlsəfi təhlili vetilərək bu tendensiyasının gələcək perespektivlərinə, tolerant, kosmopolit dəyərlərə sahib vətəndaş cəmiyyətinin qurulmasında ictimai şüura təsiri baxımından nəzəri və praktik əhəmiyyətinə elmi ictimaiyyətin diqqətini yönəltmək əsas məq1səd kimi qoyulmuşdur.

**ƏDƏBİYYAT**

1.Əliyev, İ. (2015). "*Azərbaycan tolerantlıq örnəyidir. (çıxışlar, nitqlər, görüşlər, təbriklər)*", Bakı.

2.Abdullayev, K. AzərTac. 08.04.2015

3.Abdullayev, K. (2019). "*Multikulturalizmə giriş*", Bakı

4.Бенхабиб, С. С. (2003). «*Притязание культур*», «*Равенство и разнообразия в глобальной эре*», Москва.

5.Dumouchel, P. (2001). Comparative multiculturalism. *Journal New Left Review,* London.

6.Hacıyev, A. (2018). *Multikulturalzm və mədəni siyasət,* dərslik, Bakı.

7.İlyasov, R. (2019). “*Multikulturalizmə giriş*” dərslik, Bakı.
8.Некрасов, С. Н., Некрасова, Н. А., & Платошина, В. *Американский мультикультурализм.* https://www.monographies.ru view
9.Rəhimov R. (2019). Multikulturalizmə giriş, Bakı.

## Мультикультурализм как основная философская концепция в общественном развитии современного общества

**Нармина Гасымова*** 

**Абстракт.** Статья «Мультикультурализм- основная философская концепция в общественном развитии современного общества» посвящена социально-философскому анализу проблем, происходящих в процессе глобализации в социально-культурном направлении современного общества.

В статье также отражается подход к вопросу с позиций актуальных потребностей времени и эпохи, уважение к другим культурным самобытностям, неактуализация актов радикализма, терроризма, экстремизма, религиозного фундаментализма и рацизма, которые могут вызвать дисбаланс в системе этнополитических отношений полиэтнических обществ в эпоху глобализации, принятие комплексных мер, рассчитанных на безопасное будущее по отношению к этнополитическим субъектам.

Мультикультурализм- форма толерантности, при сосуществовании представителей разных национальных культур в условиях равноправия и самоутверждения в рамках одной страны. Философско-теоретической основой парадигмы мультикультурализма является именно взаимопонимание параллельных культур в глобальном социуме, совместная деятельность и даже их равноправный диалог.

В статье понятие мультикультурализма анализируется с философской точки зрения и объясняется в основном как синтез идей коммунитаризма и либерализма. Было особо отмечено, что мультикультурализм как гуманистическая идеология отражает

* Старший преподаватель кафедры «Гуманитарных наук» Азербайджанского Государственного Университета Нефти и Промышленности; Баку, Азербайджан
E-mail: narmin_aa@mail.ru
https://orcid.org/0000-0002-9790-0018

**Цитировать статью:** Гасымова, Н. [2022]. Мультикультурализм как основная философская концепция в общественном развитии современного общества. *Журнал «Metafizika», 5*(4), с.77-87.

***История статьи:***
*Статья поступила в редакцию: 06.07.2022*
*Отправлена на доработку: 28.08.2022*
*Принята для печати: 14.10.2022*

равенство, пропагандируемое коммунитаризмом и как говорят либералы отражает уважение к индивидуальности и другим культурам и религиям.

В исследовании обращается внимание на трансформацию парадигмы мультикультурализма в основную философско-политическую концепцию современных обществ на фоне глобализации и формирование политической доктрины многих развитых стран, в том числе Азербайджанской Республики в контексте государственной политики.

В философском аспекте термин мультикультурализм является обобщенным выражением культур, к которым принадлежат социальные субъекты, имеющим широкое значение и вбирающим в себя разные ценности. Известно, что культура и духовность- это историко-философская система взглядов, и в зависимости от господства времени, в зависимости от формы общественного устройства на каждом этапе исторического развития культура, а вместе с ней и духовность изменяются и обновляются.

**Ключевые слова**: мультикультурализм, глобализация, общество, национальные отношения, этнические разнообразия, диалог цивилизаций, толерантность, интеграция

## Multiculturalism as the main philosophical concept in the social development of modern society

**Narmina Gasimova***

**Abstract.** The article titled “Multiculturalism is the key philosophic concept of a modern society’s social development” is devoted to analysis of cultural- political concerns taking place in modern societies from socio-philosophic aspects. The article outlines such topics as addressing this matter from the aspect of urgent demand of the time and period, respect to other cultural identities, and prevention of radicalism, terrorism, extremism, religious fundamentalism, and racial discriminatory acts that may upset the equilibrium in the system of ethnic- political relationships of multiethnic societies against the background of globalization process, and criticality of

* Senior Lecturer, Department of Humanities, Azerbaijan State University of Oil and Industry; Baku, Azerbaijan
E-mail: narmin_aa@mail.ru
https://orcid.org/0000-0002-9790-0018
**To cite this article:** Gasimova, N. [2022]. Multiculturalism as the main philosophical concept in the social development of modern society. *“Metafizika” journal, 5*(4), pp.77-87.

***Article history:***
*Received: 06.07.2022*
*Accepted: 14.10.2022*

taking complex measures aimed at safe future in respect of ethnic – political subjects.

Term of multiculturalism from philosophic point of view has a broader definition being a generic manifestation of the cultures to which various social entities integrating various values belong to. It is a well-known fact that culture and moral virtues are a historic- philosophic system of views and, depending on dictate of the time and form of public order established at each historic development phase, culture and moral virtues are subject to change and renewal.

Multiculturalism is a form of tolerance where representatives of different national cultures coexist in a country and assert themselves. Mutual understanding, joint activity, including equal dialogue between parallel cultures, are the factors forming philosophic- theoretical base of multiculturalism paradigm.

The article analyzes multiculturalism concept philosophically and is primarily explained as a synthesis of communitarism and liberalism ideas. It is specifically stressed that multiculturalism reflects the equality promoted by communitarism as a concept and respect towards a personality, other cultures and religions as asserted by liberals.

Readers' attention are called to transformation of multiculturalism paradigm into main philosophic- political concept of modern societies and its constitution of the political doctrine of many developed countries, including the Republic of Azerbaijan in state policy context.

**Keywords:** multuculturalism, globalization, society, national relations, ethnic diversity, dialoque of civilization, tolerance, inteqration

## REFERENCES

1.Aliyev, I. (2015). *Azerbaijan is an example of tolerance. (speeches, speeches, meetings, congratulations)*, Baku. (in Azerbaijan)
2.Abdullayev, K. AzerTaj. 08.04.2015 (in Azerbaijan)
3.Abdullayev, K. (2019). *Introduction to multiculturalism*, Baku. (in Azerbaijan)
4.Benhabib, C. C. (2003). *The Claim of Cultures, Equality and Diversity in the Global Era*, Moscow. (in Russian)
5.Dumouchel, P. (2001). Comparative multiculturalism. *Journal New Left Review*, London. (in English)
6.Hajiyev, A. (2018). *Multiculturalism and cultural policy, textbook*. Baku. (in Azerbaijan)
7.Ilyasov, R. (2019). "*Introduction to multiculturalism*" textbook, Baku. (in Azerbaijan)
8.Hekpasov, S. N., Nekrasova, N. A., & Platoshina, V. *American multiculturalism*. https://www.monographies.ru (in Russian)
9.Rahimov R. (2019). *Introduction to multiculturalism*, Baku. (in Azerbaijan)